***TƏRBİYƏ MƏSƏLƏLƏRİ***
***EDUCATIONAL ISSUES***
***ВОПРОСЫ ВОСПИТАНИЯ***

*UOT 37.1*

***Lalə Akif qızı Məmmədli***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*E-mail: lale23@mail.ru*
https://orcid.org/ 0000-0003-0686-3627
*https://doi.org/10.69682/arti.2025.92(6).91-94*

# TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİ FORMALAŞDIRMAĞIN ÜMUMPEDAQOJİ PROBLEMLƏRİ

***Lala Akif Mammadly***
*doctor of philosophy in pedagogy leading specialist at the*
*Institute of Education of the Republic of Azerbaijan*

# GENERAL PEDAGOGICAL PROBLEMS OF FORMING AN ACTIVE LIFE POSITION OF STUDENTS IN THE EDUCATIONAL PROCESS

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

# ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ СТУДЕНТОВ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

**Xülasə.** Müəllimin fəaliyyəti ilə tələbələrin (məktəblilərin) fəaliyyətinin təşkili, təhsilalanları bilik, bacarıq və vərdişlərə yiyələndirmək, onlarda dünyagörüşü, həyata baxışı formalaşdırmaq, onların mənəvi keyfiyyətlərini inkişaf etdirmək məqsədi daşıyır. Müəllim təlim prosesində – mühazirə və seminar məşğələlərində tələbələrin fəaliyyətinə rəhbərliyi həyata keçirir, gəncləri düşündürmək və müstəqil fikir yürütmələri üçün müxtəlif suallar verir, bu və ya digər məsələnin həlli yollarını tapmaları üçün hər birini istiqamətləndirir.
***Açar sözlər**: müəllimin fəaliyyəti, tələbə fəaliyyəti, həyat mövqeyi, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması*

**Abstract.** Organizing the activities of teachers and students is crucial for students' acquisition of knowledge, skills, and abilities, the development of their worldview, and the development of their moral qualities. The teacher guides students throughout the learning process, asking various questions, encouraging independent thinking and reflection, and guiding each student in finding solutions to a particular problem.
***Keywords:** teacher's activity, student activity, life position, active life position, formation of an active life position*

**Аннотация.** Организация деятельности учителя и учащихся чрезвычайно важна для усвоения учащимися знаний, умений и навыков, формирования у них мировоззрения, развития их нравственных качеств. Учитель руководит деятельностью учащихся в процессе обучения, задаёт различные вопросы, побуждая молодых людей к самостоятельному мышлению и размышлению, и направляет каждого из них на поиск путей решения той или иной проблемы.
***Ключевые слова**: деятельность учителя, деятельность ученика, жизненная позиция, активная жизненная позиция, формирование активной жизненной позиции*

Ənənəvi təhsil zamanında belə fikir mövcud idi ki, müəllimin fəaliyyəti öyrətmək, təhsilalanın fəaliyyəti öyrənməkdir. Şagird, tələbə pedaqoji prosesin yalnız obyekti kimi nəzərdən

keçirilirdi. Hazırda isə, təhsilalana pedaqoji prosesin bərabərhüquqlu üzvü kimi yanaşılır, o, pedaqoji prosesin obyekti ilə bərabər həm də subyekti kimi dəyərləndirilir. Əslində öyrətmə şərti anlayış kimi qəbul olunmalıdır. Müəllim şagirdlərə və tələbələrə təkcə biliklər vermir, eyni zamanda onları inkişaf etdirir, tərbiyələri qayğısına qalır. Tələbə, şagird müəllimdən öyrəndiyi kimi, müəllim də onlardan öyrənə bilər.

Bütün bunlarla yanaşı, öyrənmə də, yalnız təlim prosesində verilən bilikləri qavrama və mənimsəməsi prosesindən ibarət deyildir, həm də dərketmə fəaliyyətinin mürəkkəb prosesi kimi özünü göstərir. Qeyd etmək lazımdır ki, tələbələrin dərketmə prosesi onun müəllimi ilə fəaliyyətində, bilavasitə onun rəhbərliyi ilə reallaşır. Təlimin gedişində tələbələr həmişə müəllimlə ünsiyyətdə olurlar. Bu, dərketmə fəaliyyətinin həm xarakterinə, həm də gedişinə müsbət təsir edir.

Təlim prosesi – sənətdir özü də mürəkkəb, incə, çoxtərəfli, özünəməxsus sənətdir. Həmin prosesdə iki nəfər – müəllim və tələbə iştirak edir. Təlimin nəticələri biliklərin keyfiyyətində, tələbənin inkişafı səviyyəsində öz əksini tapır.

Təlim prosesi müəllim və tələbələrin fəal, məqsədyönlü şəkildə, əlbir fəaliyyəti sayəsində məhsuldar olur. Deyilənlərdən görünür ki, təlim prosesində müəllim – tələbə münasibətləri heç də "ötürücü+qəbuledici" münasibətləri səciyyəsi daşımır. Təlim eyni zamanda müəllimin çatdırdığı bilik və məlumatların tələbələr tərəfindən "qəbulu" deyil. Təlim idrak fəaliyyətinin son dərəcə mürəkkəb prosesdir. Təlimin uğurlu və səmərəli olması tələbələrin fəallığı və müstəqilliyi səviyyəsindən xeyli dərəcədə asılıdır. Təlimin hər bir növü öz məzmunu, səciyyəvi metodları və fəaliyyətin xarakteri ilə seçilir. Didaktika bu xüsusiyyətləri həmişə diqqət mərkəzində saxlayır.

Göstərmək lazımdır ki, idrakın induksiya (xüsusidən ümumiyə sarı) və deduksiya (ümumidən xüsusiyə sarı) kimi yollarının vasitəsiz (birbaşa) və vasitəli (dolayı) keçidlərindən faydalanılır. Tədqiqatlardan görünür ki, induktiv üsul təlimin əsas vəzifələrinin dərk olunan proses və hadisələrin qanunauyğunluqlarını, səbəb-nəticə əlaqələrini, asılılıqlarını mənimsəmək vəzifələrinin həyata keçirilməsini təmin etməyə qadir deyildir. Fəqət bu əşya və hadisələrin xassələrinin tələbələr tərəfindən başa düşülməklə öyrənilməsi üçün vacib üsuldur. İdrakda həmin üsulun deduktiv yanaşma ilə əlaqələndirilməsi vacibdir. Deduktiv üsul proseslərin mahiyyətinin yüksək səviyyədə başa düşülməsinin əlverişli üsuludur.

Bəşəriyyət ətraf aləmə bələd olmaq üçün hədsiz yol qət edib. Ətraf mühit obyektiv şəkildə şəxsiyyətin şüurundan asılı olmadan mövcuddur və daim öz qanunlarına əsaslanmaqla dəyişərək, inkişaf edir. Obyektiv aləm insanın hiss orqanlarına təsir göstərərək, şəxsiyyətin şüurunda öz əksini tapır, qazanılmış təsəvvürlər, qanunlar, prinsiplər və qaydalar şəklində ümumiləşdirilir. Bizi əhatə edən aləmin idrak hərəkətvericiləri ictimai təcrübə səciyyəsi daşıyır. Onlar hər bir şəxsin qarşısında yeni – yeni məsələləri qoyur ki, onları öyrənmək, dərk etmək lazım gəlir.

Obyektiv aləmə bələd olan insanlıq dəyişdirməyi öyrənir. Bilikləri verərkən müəllim həmin biliklərin tələbələr tərəfindən dərkolunma imkanların öyrənir, ortaya çıxan çətinlikləri görür, onların aradan qaldırılması yolları barədə düşünür və istədiyinə nail olmağa çalışır. Müəllim təlim məşğələlərinə hazırlaşarkən öz nəzəri və metodik səviyyəsini qaldırmağa cəhd edir. Yaradıcı müəllim həm proqram materialında, həm də onun tədrisi metodlarında yeni məqamlarla rastlaşır. Məhz bu iş prosesində müəllimin fərdi üslubu, yaradıcılığı və ustalığı meydana çıxır.

Beləliklə, təlim həm müəllim, həm də şagird üçün idrak prosesinə çevrilir. Lakin bu proses bir sıra səciyyəvi xüsusiyyətləri özündə birləşdirir. Diqqət yetirək:

Tələbələrin tədris materialını qavraması idrakdan fərqli olaraq müəllimin rəhbərliyi ilə baş verir. Əgər dərketmənin məqsədi insanlara məlum olmayan yeni təzahürlərin kəşfidirsə, bu zaman təlimin məqsədi tələbələri elmi biliklərlə silahlandırmaqdan həmçinin həmin elmi yeniliklərə bələd olmaqdan və onları tətbiq etməkdən ibarət olacaqdır. Təlim prosesinin mərkəzində tələbənin dərketmə fəaliyyəti dayanır.

İdrakın (dərketmənin) predmeti xarici ailənin təzahürlərinin öyrənilməsidir. Tələbə öz səylərini tədris materialının dərk olunmasına və yaddasaxlanmasına yönəldir. O, hər biliyi deyil, elmlərin əsaslarını öyrənməyə meyllidir.

Təlimdə biliklərin və fəaliyyət vasitələrinin daim mürəkkəbləşməsi tələbələrin inkişafını müəyyən edir. Lakin təlim yalnız öz arxasınca inkişafı aparmır, eyni zamanda özü inkişafın sə-

viyyəsindən asılı olur, onun nailiyyətlərinə söykənir. Tələbələr nəyə qadirlərsə, onu da öyrənirlər.

Müəllim təlim prosesində tələbələrin əqli səviyyəsini və inkişafını təmin etmək üçün onların inkişafının bu və ya digər səviyyəsini diqqətdə saxlamalı, bu inkişaf səviyyəsindən digər inkişaf səviyyəsinə keçməsinə kömək göstərməlidir. Bu məqsədlə o, tələbələrin əqli inkişafının zəruri əlamətlərinə sahiblənməlidir.

Əqli inkişafa o zaman nail olunur ki, gənclərdə müstəqil şəkildə biliklərə yiyələnməyə və həmin bilikləri tətbiq etməyə tələbat yaradılsın.

Təlimə yaradıcı yanaşma tələbələrin hazırlığı olmadan qeyri-mümkündür. Onlar düşünməyə, fikri əməliyyatlar aparmağa alışmalıdırlar. Fikri əməliyyatları həyata keçirməklə bacarıqlara yiyələnmə səviyyəsi tələbələrin əqli inkişafının mühüm göstəriciləridir. Hələ bu da azdır. Təfəkkür əməliyyatlarını yerinə yetirmək üçün təkidli olmaq lazımdır. Müxtəlif bacarıqlara sahiblənən tələbə heç də yalnız materialın məzmununa maraq göstərmir, eyni zamanda idrak (dərketmə) prosesinə maraqlı olur. Biliklərə maraq tədris materialına yiyələnmə üsullarını təkmilləşdirir. Biliklərə maraq, onlara tələbat əqli inkişafın mühüm əlamətidir.

Biliklərə tələbatın təsiri ilə tələbələrin dünyaya baxışları, dünyagörüşləri gerçəkliyə münasibətləri formalaşır. Bütün bunlar onların hərəkətlərində, işlərində öz ifadəsini tapır, davranışına müsbət təsir edir. Şəxsi baxışlara malik tələbələr mühakimələrində və hərəkətlərində müstəqillikləri ilə seçilirlər. Onlar özlərinəməxsus həyat mövqeyinə malik olurlar.

Əqli inkişaf tələbələrin əqli fəaliyyətinin nəticəsi kimi meydana gəlir.

Təlim əqli inkişafı sürətləndirə, yaxud zəiflədə bilər. Bu, həmin məsələnin necə təşkil olunmasından çox asılıdır.

Hər bir prosesdə hərəkət (fəaliyyət) var. Təlim prosesi – müəllimin rəhbərliyi ilə biliklərə yiyələnmə və əqli inkişafa nail olma yolları üzrə hərəkət, fəaliyyətdir.

İlk nəzərdə belə görünə bilər ki, bu hərəkət (fəaliyyət) yalnız müəllimin rəhbərliyi altında, onun göstərişi ilə baş verir. Təlim prosesinə dair belə təsəvvür, təbii kmi, birtərəflidir. Əslində təlim prosesi belə şərt əsasında həyata keçir ki, bu, tələbələrin müstəqil idrak fəaliyyəti üzvü şəkildə baş verir.

Təlim prosesində bir sıra ziddiyyətlər özünü göstərir. İlk növbədə müəllim və tələbələr arasındakı ziddiyyətlər qeyd olunmalıdır. Bu ziddiyyətlərin başlıca səbəbi tələbələrin müstəqilliyi və fəallığı məsələsidir.

Ümumtəhsil məktəbində belədir ki, müəllim təlimin ilk illərində əsasən tələbələrin idrak fəaliyyətinə diqqət yetirir, sonralar isə məktəblilərin fəallığının və müstəqilliyinin formalaşdırılması qayğısına qalır.

Təlim prosesində müəyyən şəraitlərdə meydana çıxan ziddiyyətlər təlimin hərəkətverici qüvvələri kimi özünü göstərə bilər. Həmin ziddiyyətlər aşağıdakılardır:

– Müəllim mühazirə yaxud seminar məşğələlərində təlimin cəmiyyət və tələbələrin özləri üçün necə bir əhəmiyyət da.ıdığını onlara başa sala bilər;

– Müəllim tələbələrin idrak imkanlarını yaxşı anlayır və təlimi tələbələrin güclərinə müvafiq tapşırıqlarla əhatə edir, həm də tədricən tələbələrin əqli səviyyəsi daxilində həmin tapşırıqları (vəzifələri) mürəkkəbləşdirir.

– Müəllim tələbələrin diqqətini başlıca vəzifənin həllinə yönəldir, onların diqqətini əsas məsələlərdən yayındıra biləcək problemlərdən xilas edir;

– Müəllim tələbələrin idrak fəaliyyətinin yaxşı (səriştəli) təşkilatçısıdır; diqqətli və qayğıkeş insandır; onların uğurlarında mənəvi səviyyələrinin inkişafına maraqlıdır.

Təlim prosesi insanların, o cümlədən tələbələrin geniş ictimai təcrübəsindən kənarda ola bilməz. Tələbələr təlim prosesində əmin olaraq inanırlar ki, idrakın son məqsədi əşyalar gerçəkliyinə əməli şəkildə yiyələnməkdən ibarətdir. Təlim prosesinin geniş ictimai və şəxsi təcrübəyə istinad etməsi dərketmə marağını və təlimin səmərəliliyini artırır.

Müəllim təlim prosesinin yaradıcısıdır. Lakin bu yaradıcılıq onun öz sənətinə nə qədər vurğun olmasından, yetirmələrini hansı səviyyədə sevməsindən, müəllim-tələbə qarşılıqlı münasibətlərini necə səmərəli qurmasından, öz fənnini necə gözəl bilməsindən və təbii ki, fənnin tədrisi metodikasına dərindən yiyələnməsindən çox asılıdır.

Bildiyimiz kimi, təlim prosesinin 3 başlıca funksiyası var: təhsilləndirici, tərbiyələndirici və inkişaf etdirici. Pedaqoji universitetdə və onun filiallarında, pedaqoji institutda, həmçinin ali təhsil müəssisələrinin pedaqoji fakültələrində

çalışan müəllimlər ədəbiyyat, Azərbaycan dili, Azərbaycan tarixi, pedaqogika, ailə pedaqogikası, milli əxlaq və ailə etikası, psixologiya, pedaqoji psixologiya və s. fənlərinin tədrisində təlim prosesinin (mühazirə və seminar məşğələlərinin) imkanlarından faydalana bilərlər).

Adları çəkilən fənlərin tədrisində müvafiq mövzularla tanışlıq zamanı həmin mövzuları tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə istiqamətləndirmək mumlundur.

***Pedaqogika fənni üzrə***: "Tərbiyənin mənşəyi, mahiyyəti, məqsəd və vəzifələri" (X fəsil), "Tərbiyənin prinsipləri" (XI fəsil), "Tərbiyənin metodları" (XII fəsil), "Mənəvi tərbiyə" (XIV fəsil), "Hüquq tərbiyəsi" (XVIII fəsil), "Məktəblilərlə sinifdənxaric iş" (XX fəsil), "Məktəbdənkənar iş" (XXI fəsil), "Müəllimin peşə və şəxsi keyfiyyətləri" (XXII fəsil) fəsilləri və s.

***Ailə pedaqogikası fənni üzrə***: "Mütəfəkkirlər gənc nəslin ailə həyatına hazırlanmasının vacibliyi haqqında (IV fəsil); "Ailənin mühüm əsasları" V fəslinə daxil olan "Ailənin mənəvi əsasları", "Ailənin psixoloji ab-havası" paraqrafları; "Azərbaycan ailəsi" (VI fəsil), n "Ailədə şəxsiyyətlərarası münasibətlər" (VIII fəsil), "Ailə və uşaqlar" (IX fəsil).

***Ailə psixologiyası fənni üzrə***: "Ailə və nikah" (II fəsil), "Cinsi sosiallaşma və nikaha hazırlıq" (III fəsil), "Ailədə şəxsiyyətlərarası münasibətlərin psixologiyası" (V fəsil) və s.

Haqqında söz açılan mövzuların öyrənilməsi tələbələrdə fəal həyat mövqeyinin formalamasına öz köməyini göstərir.

**Problemin aktuallığı**. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması problemlərinin tədqiqata cəlb edilməsi xüsusi aktuallıq daşıyır.

**Problemin yeniliyi**. Təlim prosesində tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması ümumpedaqoji problem kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**


1. Abbasov, A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, -2025. – 360 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütərcim, -2025. – 464 s.
3. Abbasov, A.N. Ailə pedaqogikası: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, -2019. – 272 s.
4. Məmmədli, L.A. Pedaqogika (Müntəxəbat): Ali təhsil müəssisələri üçün dərs vəsaiti / L.A. Məmmədli. – Bakı: Mütərcim, -2022. – 232 s.
5. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Ali məktəblər üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, - – 360 s.


**Redaksiyaya daxil olub**: 24 oktyabr 2025-ci il